

## ŞÜŞƏXANIM KƏRİMOVA

*Şüşəxanım Məhəmmədşərif qızı Kərimova Dağıstan Respublikasının Tabasaran rayonunun Veçriq kəndində anadan olmuşdur. Buynaksk pedaqoji məktəbini, Voronej Dövlət Universitetinin tarix fakültəsinin bitirmişdir. "Dağıstan qadını", "Zori Tabasarana", almanax və toplularda təmsil olunmuşdur.*

*Üç kitab müəllifidir. Əsərlərini rus və tabasaran dilində yazır. Dərbənd şəhərində yaşayır.*

### DOĞMA DİYARIM

Dalğalar körpə dana tək tələsir,
Bir-birinin arxasınca qaçırlar.
Onlar gah qeyb olur, gah səslənirlər,
Göz önündə əriyəndə, mən eşidirəm.
Bərkdən səslənən dalğa nəğməsi,
Necə də düzülür mirvari kimi.
Dalğalar qaynayır dağ çeşməsi tək,
Bu gözəlliklərdən gözlər qamaşır.
Bütün gördüklərin, yaddan çıxmayan,
Doğulur ürəkdə bir şeir kimi.

*Tərcümə etdi: Zeynəb Dərbəndli*

### HİCRANIN ƏLEYHİNƏ

Başımdakı şal deyil,
Ulduzlar çələngidir.
Dalğalı dəniz deyir
Məhəbbətin rəngidir.

Qumun - yolu qaranlıq,
Qumsuzluq oldu aram.
Səni hətta bir anlıq
İtirməkdən qorxuram.

Soyuq girdi qəlbimizə,
Qamçısını çaldı külək.
Hava deyil xeyrimizə -
Ondan bizə olmaz kömək.

Əllərim - duam sənə,
Dalğa vursa da nə qəm.
Hicranın əleyinə
Sənlə olmaq istərəm.

### YADINDAMI?

İstəyirəm təsadüfən
Eşqimizin yansın şamı.
Gizlin baxdım üzünə mən,
Söylə üzüm yadındamı?

Yuxumun şeh sorağında
Qatırsan şirin haramı.
Yenə o çay qırağında
De, sifətim yadındamı?

Yenə təşviş içindəyəm,
Dolubdur hicranın camı.
Səni kandarda görürəm,
De, sifətim yadındamı?

Ünvanım həmindir həmin,
Dəyişib dilimin tamı.
Baxışım sərt olub çətin,
De, sifətim yadındamı?

İllər uçdu, illər qaçdı,
Quşlar kimi, atlar kimi.
Bülbül mənə sirrin açdı,
Sən unutdun sifətimi,
Unutdun məni. De, kimi?

### OCAQ

Ocaq qaladıq ikimiz,
Qovsun şaxtanı istisi.
İsinmədik odunda biz -
Yandırdı əllərimizi.

*Çevirəni: Təhmiraz İmamov*